# Azərbaycan və BMT:
## Beynəlxalq arenada fəal tərəfdaşlıq



**Birləşmiş Millətlər Təşkilatı (BMT) 1945-ci il oktyabrın 24-də İkinci Dünya müharibəsindən sonra 51 dövlətin iştirakı ilə yaranıb. Bu gün 193 ölkəni, 500 asılı ərazini, Antarktida materikini, Qərbi Səhranı və Dünya okeanını əhatə edərək planetimizin 80 faizini öz mandat sisteminə daxil edib.**

Sülhün və təhlükəsizliyin təmin edilməsi, dövlətlərarası dostluq münasibətlərinin inkişafı, sosial tərəqqiyə yardım göstərilməsi və insan hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə yaradılmış BMT ən böyük beynəlxalq təşkilat hesab olunur.

**(davamı 4-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

BMT-nin fəaliyyətini həyata keçirən altı əsas orqan mövcuddur: Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Hamilik Şurası, Beynəlxalq Məhkəmə və Katiblik. Bu orqanlardan Beynəlxalq Məhkəmə Niderlandın Haaqa şəhərində yerləşdiyi halda, digər qurumlar BMT-nin Nyu-Yorkdakı mərkəzi idarəsində fəaliyyət göstərir. BMT, eyni zamanda müxtəlif sahələr üzrə ixtisaslaşmış qurumlara malikdir. Bunlara UNESCO (BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı), UNICEF (BMT-nin Uşaq Fondu), UNDP (BMT-nin İnkişaf Proqramı) və UNHCR (BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı) daxildir. Bu təşkilatlar inkişaf, humanitar yardım və insan hüquqlarının müdafiəsi istiqamətində fəaliyyət göstərirlər.

Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmasının ən mühüm addımlarından biri 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv qəbul olunmasıdır. Həmin tarixdə BMT Baş Assambleyasının 46-cı sessiyasında Azərbaycanın üzvlüyə qəbul olunmasına dair qətnamə qəbul edildi. 1992-ci il may ayının 6-da isə Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılıb. Bu, Azərbaycanın dünya birliyinə inteqrasiyasını gücləndirərək onun müstəqil dövlət kimi mövqeyini daha da möhkəmləndirib.

Azərbaycanın BMT-yə üzv kimi qəbul olunması Ermənistanın ölkəmizə qarşı təcavüzünün genişləndiyi bir vaxtda beynəlxalq birliyin diqqətinin münaqişə bölgəsində baş verən hadisələrə cəlb edilməsi və dünya ictimaiyyətində obyektiv rəyin formalaşdırılması istiqamətində vacib rol oynayıb. 1992-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar Təhlükəsizlik Şurası sədrinin 6 bəyanatında, eləcə də qurumun 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilib. İşğalçı ölkənin silahlı qüvvələrinin zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılması, atəşkəsin təmini və münaqişənin danışıqlar yolu ilə həlli tələb edilib. 1992-1995-ci illərdə BMT Təhlükəsizlik Şurasının sədriyi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı şəkildə tanıyan bəyanatlarla çıxış edib. Bu dövrdə qəbul olunan qərarlar münaqişənin sülh yolu ilə həllinə çağırıb və ATƏT-in Minsk qrupunun səylərinə dəstək verib. Bundan başqa, BMT Baş Assambleyası 1993-cü ildə ölkəmizdəki qaçqın və məcburi köçkünlərə beynəlxalq yardımı sürətləndirmək üçün xüsusi qətnamə qəbul edib. Daha sonra, 2006 və 2008-ci illərdə qəbul olunan "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamələr dünya birliyinin ölkəmizin haqq işinə verdiyi dəstəyin bariz nümunəsi oldu. Bu sənədlər göstərdi ki, Azərbaycan torpaqlarının işğalı heç vaxt beynəlxalq hüquqla legitimləşdirilə bilməz. Ölkəmiz öz ərazi bütövlüyü uğrunda mübarizəsində siyasi və diplomatik cəbhədə də daim üstün mövqedə olub.

1994-cü il Azərbaycan diplomatiyasının tarixinə qızıl hərflərlə yazıldı. Prezident Heydər Əliyevin BMT Baş Məclisinin 49-cu sessiyasındakı tarixi çıxışı Azərbaycanın haqq səsinin beynəlxalq arenada eşidilməsi baxımından mühüm hadisəyə çevrildi. Heydər Əliyev Ermənistanın işğalçılıq siyasətini açıq şəkildə ifşa edərək dünya ictimaiyyətini bu haqsızlığa göz yummamağa çağırdı. Ulu Öndər bununla kifayətlənmədi. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyinə həsr olunmuş xüsusi iclasda və 2000-ci ilin sentyabrında Minillik Sammitində də Azərbaycanın haqq səsini beynəlxalq ictimaiyyətə çatdırdı. O, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllinə dair Azərbaycanın prinsipial mövqeyini qətiyyətlə bəyan edərək dünya birliyini işğalçı siyasətə qarşı qəti mövqe nümayiş etdirməyə çağırdı.

Azərbaycanın xarici siyasətindəki uğurlarından biri də 2011-ci il oktyabrın 24-də BMT Təhlükəsizlik Şurasına seçkilərdə bu mötəbər təşkilata üzv seçilməsi olub. Gərgin şəraitdə keçən və bir neçə turdan ibarət səsvermədə 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləyərək, etimad göstərərək ölkəmizi bu təşkilata üzv seçib. Azərbaycanın 2012-2013-cü illər dövrü üzrə BMT TŞ-nin qeyri-daimi üzvlüyü beynəlxalq sülh və təhlükəsizliyin bərqərar edilməsi üzrə siyasi proseslərdə ölkəmizin çəkisini artırmışdır. Şuraya üzvlük zamanı rotasiya qaydasına əsasən Azərbaycan TŞ-yə iki dəfə sədrlik etmişdir. Birinci sədrliyimiz dövründə 2012-ci ilin 4 may tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə TŞ-də Beynəlxalq sülh və təhlükəsizliyə terrorizmin açdığı hədələr mövzusu çərçivəsində "Terrorizmlə mübarizə sahəsində öhdəliklərin yerinə yetirilməsi ilə bağlı beynəlxalq əməkdaşlığın gücləndirilməsi" adlı yüksək səviyyəli görüş keçirilmişdir. İkinci sədrliyimiz dövründə Azərbaycan tərəfi ənənəvi olaraq sədr ölkə tərəfindən təşkil edilən yüksək səviyyəli iclası "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusuna həsr etmişdir. 28 oktyabr 2013-cü il tarixində təşkil edilən bu iclas ilk dəfə belə bir mövzuya aid edilmişdi. Əlavə olaraq, Azərbaycanın təklifi əsasında 30 may 2012-ci il tarixində "Mübahisələrin dinc yolla həlli, münaqişələrin qarşısının alınması və həlli: vasitəçilik, hüquqi həll və ədalət" mövzusunda BMT TŞ-nin "Arria formulası" çərçivəsində qeyri-rəsmi müzakirələri təşkil olunmuşdur.

Qeyd edək ki, COVID-19 pandemiyası dövründə Azərbaycanın qlobal liderliyi və humanist mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Qoşulmama Hərəkatının sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə 3-4 dekabr 2020-ci ildə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində COVID-19-a qarşı mübarizəyə həsr olunmuş 31-ci xüsusi sessiyasının çağırılması beynəlxalq səviyyədə mühüm bir hadisə oldu. Bu tarixi sessiyada 147 ölkənin nümayəndəsi, o cümlədən 70-dən çox dövlət və hökumət başçısı iştirak edərək pandemiyaya qarşı mübarizənin qlobal həmrəylik və əməkdaşlıq olmadan mümkün olmadığını vurğuladı. Azərbaycan pandemiya dövründə yalnız çağırışlar etmədi, həm də konkret addımlar atdı. 23 mart 2021-ci ildə BMT-nin İnsan Hüquqları Şurasında Azərbaycanın təşəbbüsü ilə peyvəndlərin bərabər və universal əlçatanlığına dair qətnamə qəbul olundu. Bu sənəd COVID-19 əleyhinə peyvəndlərin ədalətsiz bölüşdürülməsinin insan hüquqlarına mənfi təsirini ön plana çıxardı və 137 ölkə tərəfindən həmmüəlliflik edildi. Bu da BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnamələr üçün olduqca yüksək göstəricidir. 16 dekabr 2021-ci ildə BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində ölkəmizin təşəbbüsü ilə daha bir tarixi addım atıldı. Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülən "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-nin 179 üzv dövləti tərəfindən dəstəkləndi. 26 dövlətin həmmüəllif kimi qoşulduğu bu qərar Azərbaycan Prezidentinin liderliyi ilə Qoşulmama Hərəkatının pandemiya ilə mübarizədə aparıcı qüvvəyə çevrildiyini bir daha sübut etdi.

2024-cü il iyunun 8-də Azərbaycan BMT Baş Assambleyası tərəfindən qurumun İqtisadi və Sosial Şurasına üzv seçilib. Keçirilən rəqabətli səsvermədə Azərbaycan 148 səslə üzvlük haqqını qazanıb və 2025-2027-ci illər üzrə 3-cü dəfə Şuranın üzvü olacaq. İlk dəfə 2003-2005-ci illərdə, ikinci dəfə 2017-2019-cu illərdə İqtisadi və Sosial Şuranın üzvü olub. Azərbaycanla yanaşı, daha 20 ölkə Şuraya üzv seçilib. İqtisadi və Sosial Şura BMT-nin 6 əsas orqanından biridir. Şura 1945-ci il iyunun 26-da qurulub və BMT Nizamnaməsinə əsasən qurumun 15 ixtisaslaşmış təşkilatının, 9 funksional və 5 regional komissiyalarının iqtisadi və sosial sahədə fəaliyyətlərini əlaqələndirir.

11-22 noyabr 2024-cü il tarixlərində Bakı dünyanın diqqət mərkəzinə çevrildi. Planetin ən nüfuzlu və genişmiqyaslı tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasına (COP29) məhz ölkəmiz sədrlik edib. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu mötəbər tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq arenada artan nüfuzunun və dünya birliyinin ölkəmizə olan böyük etimadının bariz sübutudur. Bu məqsədlə Azərbaycan Hökuməti BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi ilə fəal əməkdaşlıq edərək "Ev Sahibi Ölkə Sazişi" və digər mühüm sənədləri imzalayıb. Konfransda 76 min iştirakçı qeydiyyatdan keçib. Bakı COP-u həm tarixi qərarları, həm də mühüm qlobal problemlərin həllinə yönəlmiş razılaşmaları ilə fərqlənib. Konfrans çərçivəsində 52 məsələ üzrə qərar qəbul edilib. Onların ən vacibi inkişaf etməkdə olan ölkələrin uzun zamandır gözlədiyi "Yeni Kollektiv Kəmiyyət Hədəfi" ilə bağlı razılaşma olub. Bu çərçivədə 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə yönəldiləcək iqlim maliyyəsinin illik 1.3 trilyon ABŞ dollarına çatdırılması nəzərdə tutulub. Həmçinin inkişaf etmiş ölkələrin bu ölkələrə hər il ən azı 300 milyard ABŞ dolları həcmində iqlim maliyyəsi ayırması ilə bağlı razılıq əldə olunub. Bu məbləğ 2009-cu ildə müəyyən edilmiş 100 milyard ABŞ dolları həcmindəki vəsaitdən üç dəfə çoxdur. COP29-un başqa bir mühüm nailiyyəti isə Paris Sazişinin beynəlxalq karbon bazarlarına dair 6-cı maddəsinin tam işlək vəziyyətə gətirilməsidir - 10 ildir bu məsələ üzrə irəliləyiş əldə olunmurdu. Daha bir tarixi qərar isə inkişaf etməkdə olan ölkələrin, xüsusən də kiçik ada dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən razılaşmadır. Prezident İlham Əliyevin xüsusi diqqət yetirdiyi bu məsələ Bakı COP-un əsas prioritetlərindən biri idi və uğurla həll olundu.

**Musa BAĞIRLI,**
**"Respublika".**